AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

# KOLLEGİYA QƏRARI

№1000/01/005

Bakı şəhəri

«30» yanvar 2019

**“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Hüquqi Təminat İdarəsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.6.3-cü və 5.11.5-ci yarımbəndlərini rəhbər tutaraq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Hüquqi Təminat İdarəsi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).
2. “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Hüquqi təminat şöbəsi haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyasının 2017-ci il 23 avqust tarixli 100/04/001 nömrəli qərarının 1-ci hissəsi ləğv edilsin.
3. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.
4. Qərar aidiyyəti üzrə göndərilsin.

**Kollegiyanın sədri** **Səfər Mehdiyev**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Hüquqi Aktların Dövlət Reyestrinə 13.02.2019-cu il tarixdə 15201901301005 qeydiyyat nömrəsi ilə daxil edilmiş və 14.02.2019-cu il tarixdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının"1000/01/005"nömrəli, 2019-cu il 30 yanvar tarixli qərarı ilə təsdiq edilmişdir.

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Hüquqi Təminat İdarəsi haqqında

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Hüquqi Təminat İdarəsi (bundan sonra – İdarə) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (bundan sonra – Komitə) aparatının müstəqil struktur bölməsidir.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Gömrük Məcəlləsini, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2012-ci il tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, Komitənin kollegiyasının qərarlarını, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin (bundan sonra - Komitə sədri) qərar, əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. İdarə fəaliyyətini Komitənin aparatının, onun sisteminə daxil olan gömrük orqanlarının və qurumlarının struktur bölmələri, hüquq mühafizə və digər dövlət qurumları, habelə yerli özünüidarə orqanları ilə əlaqəli həyata keçirir.

1.4. İdarə fəaliyyətini insan və vətəndaş hüquqları və azadlıqlarına hörmət, qanunçuluq və humanizm prinsipləri əsasında qurur.

## 2. İdarənin fəaliyyət istiqamətləri

2.1. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. gömrük işi sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir;

2.1.2. Komitənin gömrük işi sahəsində normayaratma fəaliyyətini təmin edir;

2.1.3. Komitənin hüquqi təminatını və normativ hüquqi aktlarının layihələrinin məcburi hüquqi ekspertizasını həyata keçirir;

2.1.4. qanunvericiliklə müəyyən olunmuş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. İdarənin vəzifələri

3.1. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. gömrük işi sahəsində dövlət siyasətinin istiqamət və prinsiplərinin müəyyən edilməsi ilə bağlı təkliflər vermək;

3.1.2. gömrük işi sahəsində dövlət siyasətinin və idarəetmənin həyata keçirilməsi ilə bağlı Komitənin aparatının, onun sisteminə daxil olan gömrük orqanlarının